ADNSU

Azii 1920 || Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

# Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin

# Maliyyə

# Hesabatı

**2024**

Universitetin gəlir bazasının ADNSU-nun Nizamnaməsinə uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsait, fəaliyyətindən əldə olunan gəlir, o cümlədən, ödənişli təhsildən əldə edilən vəsait, ianələr, qrantlar, cəlb edilən investisiyalar və qanunla qadağan olunmayan digər vəsaitlər hesabına formalaşdırılması nəzərdə tutulur. Bununla bağlı proqnoz göstəriciləri ADNSU üzrə hər il üçün təsdiq edilən "Gəlir və xərclər smetası"nın gəlirlər hissəsində konkret olaraq öz əksini tapır:

– dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə daxilolmalar;

– "SABAH" qrupları üzrə daxilolmalar;

– "Gələcəyin müəllimi" təqaüdü üzrə daxilolmalar;

– ödənişli kadr hazırlığı üzrə daxilolmalar;

– İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına təhsil qrantlarının verilməsi üzrə daxilolmalar;

– sair daxilolmalar (elmi-tədqiqat işlərinin həyata keçirilməsi üzrə, qrantlar üzrə, təsərrüfat müqavilələri əsasında görülmüş işlər üzrə və qanunvericiliyə uyğun digər fəaliyyətlərdən daxilolmalar və s.).

Maliyyə-iqtisadi fəaliyyətin büdcə planı ADNSU-nun Strateji İnkişaf Planına uyğun olaraq tərtib edilir. Cari il üçün büdcənin formalaşdırılması büdcə tarazlığı prinsipinə əsaslanır və gəlir və xərclər bazasını müəyyən etməyə imkan verir. ADNSU-da qısa və orta müddətli dövr üçün maliyyə resurslarının planlaşdırılması sistemi mövcuddur. Belə ki, hər il ötən ilin faktiki göstəriciləri nəzərə alınmaqla, yeni büdcə ili və növbəti 3 il üçün fəaliyyət planına əsaslanan baza proqnoz göstəriciləri tərtib edilir.

Cari maliyyə planının məqsədi ADNSU-nun davamlı ödəmə qabiliyyətinin təmin edilməsidir. Maliyyə planlaşdırılmasının təşkili mərhələsində real planlaşdırmanın formalaşdırılması üçün görüləcək işlərin ardıcıllığı müəyyən edilir, uyğun göstəricilərin əsaslandırılması metodu seçilir. Orta müddətli dövr üçün maliyyə planının məqsədi Universitetin dayanıqlı inkişaf dinamikasını müəyyən etməkdir.

Universitetdə maliyyə proqnozlaşdırılması və planlaşdırılması zamanı aşağıdakı yanaşmalar nəzərə alınır:

– keyfiyyətli təhsil xidmətinin göstərilməsi və maliyyə potensialının gücləndirilməsi;

– xarici və daxili maliyyə risklərinin təsirinin nəzərə alınması ilə planlaşdırılan məqsədlərə çatmanın real olması;

– əldə edilmiş nətcələrin göstəricilərinin maliyyə proqnozlaşdırılması və planlaşdırılması prosesində istifadə olunma imkanları;

– maliyyə planlaşdırılmasının əsaslandırılması.

Müasir iqtisadi şəraitdə Universitetin gəlirlərinin formalaşdırılması təkcə təhsil fəaliyyətindən deyil, geniş xidmət spektri ilə müəyyən olunur. Bunların arasında elmi tədqiqat fəaliyyəti və innovasiyaların tətbiqindən, elmi nəticələrin kommersiyalaşdırılmasından, digər xidmətlərdən (elmi cihazlardan istifadə, istirahətin, qidalanmanın təşkili və yataqxanalardan gələn gəlir), maddi-texniki bazadan (icarə, nəqliyyat xidmətinin göstərilməsi, nəşriyyat xidmətləri və s.) gələn gəlirləri misal göstərmək olar.

Universitet əlavə maliyyə resurslarının cəlb olunması və artırılması üzrə fəaliyyət istiqamətlərini daima diqqət mərkəzində saxlayır:

– elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması hesabına gəlirlərin artırılması;

– faktiki maliyyə mənbəyi (büdcə və ödənişli təhsil xidmətlərindən daxilolmalar) ilə yanaşı maliyyələşmə mənbələrinin artırılması (şəxsi ianələr, xeyriyyə vəsaitləri və s.);

– bilavasitə təhsil xidmətlərinin istifadəçilərinin maliyyələşdirmə sferalarının genişləndirilməsi.

Smetada əldə olunan maliyyə resursları:

- dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə;
- “SABAH” qrupları üzrə;
- “Gələcəyin müəllimi” təqaüdü üzrə;
- ödənişlı kadr hazırlığı üzrə;

- İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına təhsil qrantlarının verilməsi üzrə və digər mənbələrdən daxilolmalar üzrə göstəricilər ayrılıqda göstərilir.

**2023-cü il üzrə maliyyə hesabatlarına əsasən gəlirlər və xərclər üzrə ümumi büdcə aşağıdakı kimi olmuşdur:**

| Universitetin maliyyə təminatı | 2023 |
|---|---|
| **Gəlirlər** | 156.4 mln |
| **Xərclər** | 144.3 mln |
| **Ümumi büdcə** | 176.5 mln |
| **Borc** | 0 |
| **Hesabda qalıq** | 26.8 mln |




Qeyd edək ki, zəruri ehtiyaclarla bağlı malların (iş və xidmətlərin) satınalınması “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir və hər büdcə ilinin yekunu üzrə Azərbaycan Respublikası Hesablama Palatasına hesabat verilir.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru Azərbaycan Respublikasının “Büdcə sistemi haqqında” Qanununun tələbləri gözlənilməklə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada həyata keçirilir. Belə ki, ADNSU üzrə hər büdcə ili üçün Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla “Gəlir və xərclər smetası” təsdiq

edilir. Bu sənəddə ilin əvvəlinə qalıq, gəlir mənbələri, il ərzində daxilolmalar və xərclərin iqtisadi təsnifatının paraqrafları səviyyəsində təyinatı göstərilir. Cari büdcə ili ərzində, adətən 9 aylıq hesabatın yekunu üzrə aparılmış təhlillərə əsasən maliyyə resurslarından daha səmərəli istifadə edilməsi, onların dövriliyinin sürətləndirilməsi məqsədilə dəqiqləşdirilmiş "Gəlir və xərclər smetası" təsdiq edilir.

ADNSU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi qanunvericiliyin tələbləri gözlənilməklə, 2001-ci il 27 dekabr tarixli 245-IIQ saylı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa (https://eqanun.az/framework/1029) uyğun olaraq həyata keçirilir. Bu zaman ADNSU-nun illik "Gəlir və xərclər smetası"nda təsdiq edilmiş nəzarət rəqəmləri həddində (illik göstəricilərin mallar və müqavilələr üzrə bölünməsinə yol verməmək şərti ilə) tərtib edilmiş ehtimal qiymətlərinə əsasən müvafiq icra hakimiyyəti tərəfindən təsdiq edilmiş minimum göstəricilərdən asılı olaraq müvafiq satınalma metodundan istifadə edilir və tenderin nəticəsi üzrə lazımi tədbirlər həyata keçirilir.

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin tələblərinə uyğun təşkili olunur (https://eqanun.az/framework/1029). Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi mövcud qanunvericiliyin tələbləri gözlənilməklə (tender və s.), təsdiq edilmiş müqavilə əsasında və müqavilədə təsbit edilmiş "Qiymətlərin razılaşdırılması protokolu"na uyğun həyata keçirilir. Vəsaitlər elektron qaydada təqdim edilmiş təsdiqedici sənədlər əsasında köçürülür. Mallar anbara mədaxil edildikdən sonra müvafiq təhvil-təslim aktları mühasibatlıqda qeydə alınır və lazımi müxabirləşmələr yazılır.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/5458) ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır, maliyyə hesabatları tərtib, təqdim və dərc edilir. Universitet, həmçinin dövri olaraq müvafiq dövlət orqanlarına hesabatlar təqdim edir (Dövlət Vergi Xidməti, Dövlət Statistika Komitəsi, Elm və Təhsil Nazirliyi və s.).

ADNSU özünümaliyyələşdirmə prinsipinə keçdikdən sonra maliyyə resurslarının əldə olunması mənbələrinin, onların istifadə istiqamətlərinin daima təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir və maliyyə resurslarının yeni mənbələrinin formalaşması, ondan səmərəli

istifadə olunması Universitetin inkişafının əsas hədəflərindəndir. Bu istiqamətdə Universitetin maliyyə resurslarının mövcud vəziyyəti, onların tərkibi və quruluşu (kreditor və debitor borclarının düzgün idarə olunması, onun ehtiyatlarının vəziyyəti), maliyyə resurslarının idarəedilməsi problemləri təhlil edilir, onların idarə edilməsinin səmərəliliyi qiymətləndirilir (maliyyə resurslarının istifadə olunmasının səmərəliliyi ilk növbədə onların məqsədli istifadəsini özündə ehtiva edir).

Müdafiə olunan xərclər nəzərə alınmaqla investisiya qərarları da müəssisənin maliyyə resurslarının idarə edilməsi prosesinin olduqca əhəmiyyətli və eyni zamanda əsas tərkib hissəsini təşkil edir, çünki onların böyük hissəsinin uzun dövr ərzində dövriyyədən qaldırılmasına gətirib çıxarır. Məlum olduğu kimi, maliyyə resurslarının idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi əhəmiyyətli dərəcədə aktivlərə qoyulan investisiyaların səmərəliliyinin qiymətləndirilməsi ilə əlaqədardır.

**Azərbaycan Dövlət neft və Sənaye Universitetinin Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən aparılan akkreditasiya qiymətləndirmələrində maliyyə istiqaməti üzrə nəticələri**

1. **Maliyyə resurslarının idarə edilməsi**

**1.1. ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

ADNSU-nun Nizamnaməsi 12 avqust 2022-ci ildə Azarbaycan Respublikası Nazirlər Kabinetinin 300 nömrəli qərarı ilə təsdiq olunmuş və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş idarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 20 oktyabr 2022-ci ildə qeydiyyata alınmışdır.

Nizamnamənin 5.2 bəndində qeyd edildiyi kimi, ali məktəbin əmlakı nizmanamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitlərdən formalaşır.

ADNSU-nun maliyyə resursları universitetdən təqdim olunan məlumata əsasən 2017-2023-cü illər üzrə aşağıdakı kimi formalaşmışdır:

| Universitetin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Ümumi gəlir** | 49.7 mln | 58.9 mln | 64.2 mln | 87.7 mln | 106.3 mln | 117.2 mln | 156.4 mln |
| **Ümumi xərc** | 38.6 mln | 48.5 mln | 51.6 mln | 79.6 mln | 92.5 mln | 104.8 mln | 144.3 mln |
| **Ümumi büdcə** | 59.6 mln | 66.7 mln | 78.3 mln | 96.2 mln | 121.2 mln | 148.9 mln | 176.5 mln |
| **Borc** | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| **İlin sonuna qalıq** | N/A | N/A | N/A | N/A | N/A | N/A | 26.8 mln |

Nizamnamənin 5.13 bəndində qeyd edildiyi kimi, universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanlarin və təhsilverənlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyan edilmiş digər məqsədlərə yönəldilir. Universitet tərəfindən əldə olunan vəsaitlərin xərclənməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uygun olaraq tənzimlənir.

### 1.2. Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

ADNSU tərəfindən təqdim olunmuş Özünütəhlil Hesabatında 2021-2030-cu illər üçün qısa (1 illik) və ortamüddətli (5 illik) İnkişaf Strategiyası üzrə Fəaliyyət Planında maliyyə imkanlarının genişləndirilməsi və diversifikasiyası məqsədilə, yerli və əcnəbi müəssisələrlə 101 birgə təsərrüfat müqaviləsi əsasında elmi-tədqiqat işlərinin aparılması, ADNSU-nun təsisçisi və həmtəsisçisi olduğu müəssisələr vasitəsilə kommersiya məqsədli istehsalatın təşkili, milli və beynəlxalq elm fondlarının qrant layihələrində fəal iştirak hədəfi qoyulmuşdur. Fəaliyyət Planınında qeyd olunan hədəflərin qısa və orta müddətli dövr üçün həyata keçirilməsi məqsədilə Elmi işlər üzrə prorektorun, Beynəlxalq əlaqələr üzrə prorektorun və Təsərrüfat işləri üzrə prorektorun iştirakı ilə mütəmadi iclaslar keçirilir və rektora məruzə olunur.

### 1.3. Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

ADNSU tərəfindən əldə olunan maliyyə resursları haqqında məlumatlar maraqlı tərəflər üçün şəffaf və əlçatandır. Əldə olunan maliyyə resursları haqqında hər il ADNSU Elmi Şurası qarşısında hesabat verilir. ADNSU Nizamnaməsinin 3.1.18. bəndində qeyd olunduğu kimi, universitetə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək universitetin əsas vəzifələrindən biridir.

Əldə olunan maliyyə resursları haqqında müvafiq məlumatlar rüblük və illik olmaqla Azərbaycan Respublikasının dövlət orqanlarına (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, AR

Dövlət Statistika Komitəsi) təqdim olunur. ADNSU-da daxili audit mexanizminin yaradılması tövsiyə olunur.

### 1.4. Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

ADNSU tərəfindən təqdim olunan məlumatda təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti haqqında aşağıdakı məlumat təqdim olunmuşdur:

**Cədvəl 1.4.1. Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti**

| Təhsil müəssisəsinin maliyyə təminatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbəti** | 2.27 | 3.32 | 2.48 | 4.56 | 0.83 | 1.71 | 4.03 |

Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmaların ümumi daxilolmalara nisbətinə illər üzrə baxdıqda, ən yüksək nəticə (4.56) 2020-ci ildə müşahidə olunub. Dinamikanı izlədikdə artıb-azalan dinamika müşahidə olunur.

ADNSU-ya əlavə maliyyə resurslarının, xüsusilə də, elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan vəsaitlərin cəlb olunması istiqamətində fəaliyyətin artırılması tövsiyə olunur.

### 1.5. Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

ADNSU Nizamnaməsinin 5.13. bəndində qeyd olunduğu kimi, universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverenlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə yönəldilə bilər. ADNSU PHŞ tərəfindən təqdim olunan maliyyə hesabatından göründüyü kimi, maliyyə resurslarından istifadə ADNSU Nizamnaməsinə və SİP-ə uyğundur.

### 1.6. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

ADNSU Nizamnaməsinin 5.2. bəndində qeyd olunduğu kimi, universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən təhsildən əldə edilən vəsaitdən, 104 ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan, qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru ADNSU Nizamnaməsinə müvafiq olaraq həyata keçirilir. Universitetin maliyyə resurslarının əldə olunması və istifadəsi Nizamnamənin 5.5. bəndinə uyğun olaraq əmlak üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uygun olaraq sərbəst, sərəncam vermək hüququnu isə Nazirliklə razılaşdırmaqla həyata keçirir.

### 1.7. Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Universitet fəaliyyətindən əldə edilən vəsait Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uyğun olaraq xərclənir. Maliyyə resurslarından təyinatı üzrə istifadəyə nəzarəti ADNSU Himayəçilər Şurası tərəfindən təyin edilən kənar auditor və ya daxili audit bölməsi

həyata keçirir. Maliyyə resurslarından təyinatı üzrə istidafəsi zamanı həmçinin, "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı da əsas tutulur. Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarət həmçinin, Azərbaycan Respublikasının dövlət orqanları (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti) tərəfindən həyata keçirilir.

### 1.8. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, görülən işlərin və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq aparılır. Prodesur zamanı müqavilələrin hazırlanmasına, tender və katirovkaların qanunun tələblərinə uyğun aparılmasına nəzarət Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılır. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili haqqında hesabatlar həm universitet rəhbərliyinə, həm də Azərbaycan Respublikasının dövlət orqanlarına (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti) təqdim olunur.

### 1.9. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ADNSU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun aparılır. Sahə baxışı və müsahibələr zamanı sənədlərin tərtib olunması qaydasına baxılmış, tenderlərin keçirilmə proseduru ilə yaxından tanış olunmuş, elan olunmuş tenderlərin illər üzrə qalibləri və onların müvafiq sənədləşmə işləri ilə, həmçinin, imzalanmış müqavilələrlə tanış olunmuşdur. Müsahibə zamanı tender iştirakçılarının və onların müvafiq

sənədlərinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin elektron bazasına yerləşdirildiyi müşahidə olunmuşdur.

### 1.10. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Maliyyə və mühasibat hesabatları publik hüquqi şəxslərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına təqdim etdikləri vergi hesabatları və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq hazırlanıb təqdim olunur. Maliyyə və mühasibat hesabatları rüblük və ya illik olmaqla Azərbaycan Respublikasının dövlət orqanlarına (AR Elm və Təhsil Nazirliyi, AR Maliyyə Nazirliyi, AR Hesablama Palatası, AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, AR Dövlət Statistika Komitəsi) təqdim olunur.

### 1.11. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tərtib olunan hesabatlar və ya hər hansı bir digər maliyyə və mühasibat hesabatları ADNSU rəsmi saytında dərc edilməsə də, gələcəkdə bu tip hesabatların public olaraq paylaşılması nəzərdə tutulur.

### 1.12. Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

ADNSU Nizmnaməsinə, SİP-ə, 2021-2030-cu illər üçün qısa, orta və uzunmüddətli inkişaf strategiyasına nəzər yetirdikdə maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadə istiqamətlərinin illər üzrə təkmilləşdiyini görmək mümkündür. Bu istiqamətdə yerli və xarici müəssisələrlə birgə təsərrüfat müqaviləsi əsasında elmi-tədqiqat işlərinin aparılması, milli və beynəlxalq qrant layihələrində fəal iştirak, yeni laboratoriyaların qurulması, müasir

avadanlıqlarla təhciz edilməsi, “Kitab Evi”nin genişləndirilməsi və zənginləşdirilməsi, daxili qrantlar hesabına elmi-tədqiqat işlərinin stimullaşdırılması, aparıcı xarici və yerli mütəxəssislərin ADNSU-ya dəvət olunması, beynəlxalq təşkilatlara üvzlüyün təmin edilməsi və s. görülən tədbirlər təkmilləşməyə və maliyyə resurslarının diversifikasiyasına xidmət edir. Bu məqsədlə, müsahibələrdən aydın olduğu kimi, ADNSU-da mütəmadi iclaslar keçirilir, maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə təkliflər dinlənilir. Təkliflər növbəti büdcə smetasının planlaşdırılması zamanı nəzərə alınması üçün Himayədarlar Şurasına və müvafiq dövlət orqanlarına təqdim olunur.